________Milli Kitab

TTF

Tətbiqi Tədqiqatlar Fondu

Azərbaycan Respublikasının Prezidenti Yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası


**İ.Z.Əliyev**


# QLOBALLAŞMA DÖVRÜNDƏ AZƏRBAYCANDA ORTA MƏKTƏB MƏZUNLARININ TƏHSİL VƏ MƏŞGULLUQ PROBLEMLƏRİ


**BAKI -2010**

________*Milli Kitabxana*________

Redaktor : A.Əlizadə
Rəyçilər : S.H.Məmmədli, pedoqoji elmlər namizədi
A.Ağalarzadə, tarix elmləri üzrə fəlsəfə doktoru

Tərtibçi : G.Məmmədova

# Qloballaşma dövründə Azərbaycanda orta məktəb məzunlarının təhsil və məşğulluq problemləri

*Kitabça Tətbiqi Tədqiqatlar Fondunun Azərbaycan Respublikasının Prezidenti Yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə həyata keçirilən «Orta məktəbdən yetkin həyata: Azərbaycan Respublikasında təhsilin davamlılığının monitorinqi və ictimai müzakirəsi » layihəsi üzrə aparılan tədqiqatın nəticələri əsasında yazılmışdır.*

*Layihə çərçivəsində aparılan tədqiqat və onun nəticələrindən biri olaraq nəşr edilən bu kitabça Azərbaycan cəmiyyəti üçün çox aktual olan problemə - böyüməkdə olan nəslin orta məktəbdən sonra təhsilin növbəti mərhələləri ilə əhatə edilməsi, onların məşğulluq vəziyyəti, onlara peşə ixtisaslarının verilməsinin vəziyyəti məsələlərinə istiqamətlənmişdir. Tədqiqat zamanı geniş mənbələrdən, xüsusən statistik materiallardan istifadə olunmuşdur, qabaqcıl dünya ölkələrində həmin problemlərin həlli praktikası araşdırılmışdır. Bir sıra statistik materialların və cədvəllərin verilməsi oxucuda problem barədə daha dolğun təsəvvür yaratmaq məqsədinə xidmət edir.*

« Maarif» Nəşriyyatı

© TTF

**MÜNDƏRICAT**

Giriş ........................................................................................ 4

Davamlı təhsil və böyüməkdə olan nəslin
məşğulluq problemi. Dünya təcrübəsi və
Azərbaycan ................................................................................. 7

Peşə təhsili sisteminin vəziyyəti və onun
perspektivləri ........................................................................ 29

Azərbaycanda təhsil sisteminin hazırkı
vəziyyəti və onun inkişaf imkanları ......................................... 39

Cədvəllər və diaqramlar ......................................................... 41

# Giriş

Azərbaycan Respublikası artıq iki onillikdir ki, müstəqillik yolunda addımlayır. Həmin dövr ərzində bu gənc respublika ictimai həyatın bütün sahələrində böyük əhəmiyyət kəsb edən problemləri həll edərək ölkənin müstəqilliyini təsdiq etmiş və dünya dövlətləri sırasında özünəməxsus yüksək yerini qazanmışdır. Müstəqillik dövründə Azərbaycan Respublikasıda başqa sahələrdə olduğu kimi təhsil sahəsində də köklü dəyişikliklərə qərar vermiş, bu sahədə islahatlar keçirilməyə başlanmışdır. Sovet imperiyası mühitindən və kommunist ideologiyasının buxovlarından xilas olmuş və özünü bütün sahələrində müstəqil dövlət kimi formalaşdıran Azərbaycan təhsili də müstəqil həyatın və yeni ictimai-iqtisadi münasibətlərin tələblərinə uyğun şəkildə yenidən qurmalı, bu sahədə də qabaqcıl dünyaya inteqrasiya etməli idi.

Yarandığı gündən müstəqil Azərbaycan Respublikası bu istiqamətdə quruculuq işlərini həyata keçirir. Lakin həmin problemlərin aradan qaldırılması və tamamilə həll edilməsi böyük qüvvə və xeyli zaman tələb edir. Belə ki, təhsil sahəsində əsaslı dəyişiklikləri qısa müdddətdə həyata keşirmək və dərhal nəticələr əldə etmək qeyri-mümkündür. Təhsil sahəsi elə bir sahədir ki, orada qoyulan məqsədlərə çatmaq üçün uzun və böyük əmək tələb edən yol keçmək lazım gəlir. Bu işdə dəqiq hesablanmış fəaliyyət

proqramının hazırlanması və onun məqsədyönlü şəkildə, ardıcıl həyata keçirilməsi son dərəcə vacibdir. Böyük səylər, uzunmüddətli gərgin əmək, külli miqdarda vəsait tələb edən bu işlərin uğuru dövlətin, bütün Azərbaycan cəmiyyətinin, hər bir ölkə vətəndaşının diqqətini, güclərin səfərbər edilməsini tələb edir.

Bir qeyri-hökumət təşkilatı olaraq, Tətbiqi Tədqiqatlar Fondu Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə yardımı ilə həyata keçirdiyi «Orta məktəbdən yetkin həyata : Azərbaycan Respublikasında təhsilin davamlılığının monitorinqi və ictimai müzakirəsi» layihəsində ölkənin inkişafı üçün son dərəcə mühüm əhəmiyyətə malik olan bir problemin qabardılması, müzakirəsi, həlli yollarının araşdırılmasını, əhalinin məlumatlandırılması və maarifləndirilməsi istiqamərində işlər görülmüşdür. Layihə çərçivəsində xeyli tədqiqat, təbliğat və maarifləndirmə işləri həyata keçirilmişdir. Onların sırasına Azərbaycanda problemin qoyuluşu və onun mahiyyətinin araşdırılması, həmin problemin digər, xüsusən inkişaf etmiş Qərb ölkələrində vəziyyətinin işıqlandırılması, mövcud problemin qloballaşma şəraitində olkənin ümumi vəziyyətinə təsirinin araşdırılması, bu cəhətdən Azərbaycan Respublikasında vəziyyətin araşdırılması, məsələnin kütləvi informasiya

vasitələrində, elmi-praktik konfranslarda qaldırılması və problemin mümkün həlli yollarının araşdırılması, onun ölkə üctimaiyyəti arasında geniş müzakirəsi və sairə daxildir.

Həmin tədqiqatların və ictimai müzakirələrin yekunlarından biri də təqdim olunan bu kitabçadır. Düşünürük ki, Azərbaycan dövlətinin və cəmiyyətinin güclənməsi, problemlərinin aradan qaldırılması və onun uğurla Avropaya və , bütövlükdə, Qərbə inteqrasiya etməsi və dünyada özünə layiq yer tutmasına xidmət edən bu iş vacibdir və davam etdirimәlidir.

# Davamlı təhsil və böyüməkdə olan nəslin məşğulluq problemi.

## Dünya təcrübəsi və Azərbaycan

Hər bir cəmiyyətin aktual problemlərindən biri böyüməkdə olan nəslin istiqamətləndirilməsi, onların yetkin həyata hazır olması məsələlərdir. O, təkcə dövlətlərin öz vətəndaşlarına yardım etməsi deyildir, həm də həmin dövlətin ictimai həyatının bütün sahələrində strategiyasının əsasında dayanan bir məsələdir.

Bundan çıxış edərək qeyd etmək lazımdır ki, təhsilin planlaşdırılması, təhsil müəssisələrinin, o cümlədən orta məktəb məzunlarının düzgün uçotu, istiqamətləndirilməsi, yerləşdirilməsi, bu işlərin proqnozlaşdırılması və planlaşdırılması müvafiq dövlət və ictimai strukturların görməli olduqları ən vacib işlərdəndir. Əslində bu məsələlər dövlətin təhsil sahəsində yeritdiyi siyasətin əsasını təşkil edir.

Böyüməkdə olan nəslin peşə və təhsil məsələlərinin nizama qoyulması strateji əhəmiyyətə malik olaraq, cəmiyyətin bütün digər sahələri ilə üzvi şəkildə bağlıdır. Eyni zamanda ölkənin ictimai-iqtisadi, sosial-siyasi, mədəni həyatının problemlərinin həlli istiqamətində əsaslı dəyişikliklərə nail olmadan əhalinin təhsil və məşğulluq problemlərini həll etmək

və bu sahədə əhəmiyyətli uğur qazanmaq mümkün deyildir.

Haqqında danışılan problemlərin ən mürəkkəb məqamlarından biri keyfiyyət və mahiyyət məsələləri ilə bağlıdır. Belə ki, kəmiyyət artımı yeni-yeni təhsil ocaqlarının yaradılması, yeni-yeni iş yerlərinin açılması özü özlüyündə mövcud çətinlikləri tam həll edə bilmir. Həm təhsilin müxtəlif mərhələlərində, həm də gənclərə peşə ixtisasının verilməsində yüksək standartların əldə edilməsi, ümumi əmək bazarının tələblərinin ödənilməsi, milli kadrların qloballaşan sosial-iqtisadi məkanda rəqabət qabiliyyətliliyinin təmin edilməsi tam kəskinliyi ilə gündəlikdədir.

Belə bir rəqabət mühitində böyüməkdə olan nəslin peşə və ixtisas hazırlığı problemlərin aktuallığı son dərəcə kəskin şəkildə nəzərə çarpır. Dünyada əməyin xarakteri dəyişir, əqli amilin payı artır, yeni peşələr yaranır, köhnələr tədricən sıradan çıxır. Bu da öz növbəsində vaxtaşırı işsizlik probleminin qalxmasına gətirib çıxarır.

Azərbaycan reallığından çıxış edərək qeyd etmək lazımdır ki, işsizlərin xeyli hissəsini gənclər təşkil edir. Bunun əsas səbəblərindən biri orta məktəbi bitirən gənclərin peşə hazırlığı cəhətdən qeyri-müəyyən vəziyyətdə olması, peşə təhsili sisteminin son dərəcə zəifləməsi və müasir ictimai-iqtisadi mühitin tələblərinə cavab verməməsi, gənclərin peşə yönümü problemlərinin həllində köhnə standartların üstünlüyü və sairədir.

Ölkədə formalaşmış yeni ictimai-iqtisadi mühitlə əsaslı şəkildə köhnəlmiş təhsil sistemi, o cümlədən peşə təhsili sistemi arasında dərin ziddiyyət mövcuddur. Bu ziddiyyət təhsilin bütün səviyyələrində müşahidə olunur. Onların hər birində köklü dəyişikliklərin aparılması zəruridir. Hazırda təhsilin müxtəlif pillələrində Azərbaycanda dövlət öz islahat xəttini davam etdirir. Təhsil sistemində həyəcan doğuran və redikal dəyişikliklərə ehtiyacı olan məqamlardan biri də, bəlkə də kəskinliyinə görə birincisi orta məktəb məzunlarının əmək və təhsil karyerasının davamı məsələsidir.

Bu problemlər təkcə yeni müstəqilliyə qədəm qoymuş ölkələr üçün xarakterik deyildir. O, iqtisadi inkişafın öz qanunauyğunluğundan doğur və hər bir dövlətdə özünəməxsus şəkildə tənzimlənir. Belə bir məqamda qabaqcıl xarici ölkələrin təcrübəsinin öyrənilməsi, onların inkişaf mödellərinin yerli şəraitı uyğun tətbiq edilməsi Azərbaycan üçün dəyərlidir. Burada diqqəti İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına (İƏİT) üzv olan ölkələrin təcrübəsinə yönəltmək istərdik.

Dünyada istehsal olunan əmtəənin və xidmətin 2/3-si İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına üzv olan 30 ölkənin payına düşür. Bütün başqa keyfiyyətlərlə yanaşı buna təsir edən amillərdən biri də yüksək səviyyəli təhsilin olması və onun əhalinin maksimum geniş təbəqələrini əhatə etməsidir. İƏİT

ölkələrinin ictimai-iqtisadi həyatını əhatə edən “Təhsilə baxış 2007” məruzəsində təhsil problemləri də işıqlandırılır. Orada faktlarla sübut olunur ki, əhalinin geniş kütlələri üçün ali və orta ixtisas məktəblərinin əlyetərli olduğu bu ölkələrdə təhsilin inflyasiyası yoxdur. Eyni zamanda təhsilin dövlət büdcəsi üçün ağırlıq yaratdığından onun islah edilməsi ehtiyacı xüsusi qeyd olunur.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatına inkişaf etmiş ölkələrin iqtisadi təşkilatıdır. O, elə bir nüfuzlu birlikdir ki, ona üzv dövlətlərin hökumətləri və tərəfdaş ölkələrin nümayəndələri İƏİT–ın katibliyinin məlumat-analitik icmallarına əsaslanaraq öz iqtisadi və sosial siyasətlərini müzakirə edir, inkişaf proqramları işləyib hazırlayır və onu mütəmadi olaraq təkmilləşdirirlər. Hər hansı Avropa dövlətinin ona daxil olması onun üçün üstünlük hesab edilir. Hazırda bu təşkilata Avstraliya, Avstriya, Belçika, Böyük Britaniya, Macarıstan, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İslandiya, İspaniya, İtaliya, Kanada, Lüksemburq, Meksika, Niderland, Yeni Zelandiya, Norveç, Polşa, Portuqaliya, Slavakiya, ABŞ, Türkiyə, Finlandiya, Fransa, Çexiya, İsveç, İsveçrə, Cənubi Koreya, Yaponiya daxildir. Bundan başqa birgə proqramlarda tərəfdaş ölkə kimi Braziliya, İzrail, Hindistan, Çin, Rusiya, Sloveniya, Çili və Estoniya iştirak edir.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələrində təhsilin maliyyələşdirilməsi özünəməxsus şəkildə aparılır. 2007-ci ildə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələri üzrə təhsil xərcləri ümumi daxili məhsulun (ÜDM-un) 6,2 faizini təşkil edir. Bütün sosial xərclərin 13,4%-i bu sahəyə yönəldilir. Konkret olaraq Çexiya, Almaniya, Yunanıstanda, İtaliya və Yaponiyada bu göstərici 10%, Meksika və Yeni Zelandiyada 20%-dən çoxdur. 1995-ci ildən 2004-cü ilədək İƏİT ölkələri üzrə təhsilin bütün səviyyələrinə dəstək üçün xərclər 42% artmışdır. Xərclərin əsas donoru kimi dövlət çıxış edir. Təhsil xərclərinin 87%-i dövlətin hesabına ödənilir. Aşağıda bu təşkilatın hesabatından götürülmüş cədvəllər vəziyyəti əyani şəkildə nümayiş etdirir.

***Cədvəl 1**. Ölkələrin təhsilə xərcləri (bütün səviyyələrinin təhsil müəssisələrinə ÜDM-dan sərfinin faizlə payı)*



***Cədvəl 2.*** *Bir şagirdə ildə sərf edilən xərc.*




İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı  ökələrində yaşlı əhalinin 60%-i orta təhsilə malikdir.  İƏİT-ın 24 ölkəsində  yaşlı əhalinin 36%-i ali təhsilə malikdir. Son onillik ərzində ali məktəb məzunlarının sayı 2 dəfə artmışdır. Eyni zamanda tələbələrin 30%-i ali təhsili başa vurmadan oranı tərk edirlər.

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələri üzrə gənclər ictimai elmlər, iqtisadiyyat və hüquqşünaslıq ixtisaslarını daha çox seçirlər. Yaşlı əhalinin təxminən 1/3-i bu ixtisaslara malikdir.

Məşğulluq səviyyəsi İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələrində təhsil səviyyəsi ilə birbaşa bağlıdır. İƏİT ölkələri cəmiyyətin bütün təbəqələrinə ali məktəblərə bərabər daxil olmaq imkanı verməyə çalışır. Bu mənada ən çox irəliləyən İrlandiya və İspaniyadır. Avstriya, Fransa, Almaniya və Portuqaliyada isə fəhlələrin yalnız ikisindən biri ali təhsil almaq imkanı əldə edə bilir. Bununla yanaşı məruzə müəllifləri həmin problemin tezliklə həll olunmasını vacib hesab edirlər. Belə ki, əmək bazarında ixtisassız əməyə tələbat günbəgün azalır və tezliklə savadsız işçilər cəmiyyətin artıq yükünə çevrilə bilər və cəmiyyətdə sosial təbəqələşmə daha da dərinləşə bilər. Cəmiyyətin bütün təbəqələrinin ali təhsil almaq imkanının olması əmək bazarını genişləndirməyə və orada rəqabət mühiti yaratmağa imkan verir.

Ali təhsil almaq arzusunda olanların sayı İƏİT ölkələrində fərqlidir. Orta hesabla İƏİT üzrə 15 yaşlıların 57%-i universitetlərdə oxumaq istəyir. Cənubi Koreyada bu rəqəm 95%-i təşkil edir. Almaniyada isə cəmi 21% buna can atır. Bu müxtəlif amillərdən asılıdır. Yerli əhaliyə nisbətən gəlmə əhalidə ali təhsilə maraq daha böyükdür.

Ömür boyu təhsil qabaqcıl dünya ölkələrində ən çox diqqət mərkəzində olan məsələlərdəndir. İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı ölkələrinin iqtisadiyyatı günbəgün daha çox

ixtisaslı mütəxəssislərin ortaya axınından asılı olur və bu meyl güclənməkdədir. İnkişaf etmiş ölkələrin əhalisi qocaldığı üçün təhsil səviyyəsinin yüksəldilməsi və iş stajının artırılması bu asılılığı, habelə təqaüd (pensiya) xərclərinin ağırlığını bir qədər azalda bilər. İnsanlar həm gənc yaşlarında, həm də bütün ömrü boyu daim öz ixtisasını artıraraq, təhsil almaq imkanından fəal istifadə edirlər. Son 12 ay ərzində İƏİT-in dörd ölkəsində - Danimarka, Finlandiya, İsveç və ABŞ-da 25-64 yaş arasında əhalinin 35%-i öz ixtisaslarını artırmaq üçün təhsil layihələrində iştirak etmişdir. Daha yüksək təhsil səviyyəsinə malik olanlar ixtisasartırma və yenidənhazırlama kurslarında həvəslə iştirak edirlər. Azərbaycanın müasir dövrdə inteqrasiya etdiyi sosial iqtisadi məkan bu amillərin ən ciddi şəkildə nəzərə alınmasını tələb edir.

Həmin nöqteyi-nəzərdən çıxış edilərək aparılan tədqiqatlar davamlı təhsil və ölkə əhalisinin lazımi ixtisaslar almasının təmin edilməsi məsələlərində konkret nəticələrə gəlməyə imkan verir.

Aparılan sosioloji tədqiqatların nəticələri Azərbaycanda orta məktəb məzunlarının yeni mərhələdə inkişaf və istiqamətlənmə sahəsində real vəziyyəti daha dolğun təsəvvür etməyə imkan verir. Rəqəmlər və faktlar əyani şəkildə göstərir ki, Azərbaycanda Avropa ölkələrinin çoxundan fərqli olaraq, orta məktəbi başa vurmuş gənclərin 90 faizindən çoxu təhsilini ali və

orta ixtisas məktəblərində davam etdirmək arzusundadır. Qeyd edək ki, inkişaf etmiş qabaqcıl Avropa ölkələrində bu göstərici xeyli aşağıdır. Onların çoxunda bu rəqəm 40-60 faiz həddindən yuxarı qalxmır. Düşünürük ki, bu həmin məzunların seçim imkanının genişliyi ilə bilavasitə bağlıdır. Azərbaycanda isə təhsilin yüksək mərhələlərinə belə yüksək marağın səbəbləri müxtəlifdir. Bütövlükdə böyüməkdə olan nəslin təhsilini davam etdirməyə can atması təqdirəlayiq haldır. Lakin araşdırmalar göstərir ki, orta məktəb məzunlarının bu istəyi ilə onların real vəziyyəti arasında böyük ziddiyyət vardır. Yeniyetmələrin təhsilə can atması heç də həmişə onların elmə yanğısından irəli gəlmir. Davamlı təhsilə meylin bir neçə səbəbləri üzərində dayanmaq istərdik.

Əvvəla maarifə, elmə maraq uzun illər boyu formalaşmış ənənə və düşüncə tərzi ilə izah olunmalıdır. Uzun müddət, xüsusən Sovet hakimiyyəti illərində xeyli problemlərin olmasına baxmayaraq əhalinin demək olar ki, hamısının natamam və tam orta təhsillə əhatə olunması yüksək təhsil səviyyəsini təmin etmişdir. Bu amil ölkədə təhsilin bundan sonra inkişaf etməsi üçün möhkəm zəmin yaradır. Lakin bu amil müsbəb təsir etsə də, özü özlüyündə hər şeyi həll etmir. Hazırda Qərbin inkişaf etmiş ölkələrinin bir çoxunda orta məktəb məzunlarının təhsilini davam etdirməyə maraq göstərməsi faizinin aşağı olduğu yuxarıda qeyd

olunmuşdur. Əlbəttə bunu orta təhsilin zəifliyi ilə izah etmək mümkün deyildir.

Əslində Azərbaycanda gənc nəslin təhsili davam etdirməyə can atması kimi müsbət bir reallığın bir sıra problemləri də vardır. Ali və orta ixtisas məktəblərinə olan axınla həmin məktəblərin qəbul etmək imkanı arasında xeyli fərq mövcuddur. Əhalinin hər 1000 nəfərinə düşən yüksək təhsillilərin statistik göstəricilərinə əsaslanaraq demək olar ki, hər bir vətəndaş potensialına uyğun yer tutmur. Təhsilini davam etdirən orta məktəb məzunlarının yalnız 30 faizə qədəri bu imkanı qazana bilirlər.

Orta məktəb məzunlarının hazırlıq səviyyəsinin müasir dövrün tələblərindən xeyli geri qalması bu sahədə olan mövcud problemlərin kökündə durur. Son illərdə keçirilmiş qəbul imtahanlarının statistik analizinə diqqət yetirsək bu məsələni əyani müşahidə edə bilərik.

Dəfələrlə qeyd olunduğu kimi, ictimai həyatın bütün sahələrində olan problemlər qarşılıqlı olaraq bir-birinə təsir edir və onların həlli bütövlükdə hər birində addım-addım aradan qaldırılması ilə bağlıdır. SSRİ-nin dağılması, ölkədə movcud olan köhnə ictimai-iqtisadi və siyasi sistemin iflası müstəqilliyə qədəm qoymuş gənc dövlətin qarşısında xeyli problemlər qoydu. Bütün sahələrdə dağıntıların aradan qaldırılması, yeni münasibətlər

## TQDK statistikasına görə son illərdə tələbə qəbulunun yekunları

***Cədvəl 3***

| il | Məzunların sayı | Sənəd verənlərin sayı | Ali məktəbə qəbul olanların sayı | Texnikumlara qəbul olanların sayı | Ümumi qəbul olanlar (faizlə) | Qəbul olmayanların sayı | Faizlə |
|---|---|---|---|---|---|---|---|
| 2004 | 126427 | 90680 | 24 283 | 7397 | 85,28 | 66 397 | 72,88 |
| 2005 | 123108 | 99388 | 27 763 | 4800 | 82,95 | 71 625 | 71,96 |
| 2006 | 115 414 | 105 120 | 23 817 | 8488 | 92,93 | 81 303 | 77,16 |
| 2007 | 113 922 | 106 831 | 25 811 | 6124 | 96,57 | 81 020 | 75,03 |
| 2008 | 106 246 | 116 520 | 27 515 | 6178 | 97,81 | 89 005 | 76,39 |
| 2009 | 108 271 | 112875 | 28004 | 6406 | 96,48 | 84 871 | 71,19 |

**2004 2005 tədris ilinin tələbə qəbulu üzrə**

**Məzunların ümumi sayı 126 427 nəfər**

**Abituriyentlərin ümumi sayı 90 680 nəfər**




**2005 2006 tədris ilinin tələbə qəbulu üzrə**

**Məzunların ümumi sayı 123 108 nəfər**

**Abituriyentlərin ümumi sayı 99 388 nəfər**



## 2006/2007-ci tədris ilinin tələbə qəbulu üzrə

**Məzunların ümumi sayı 115 414 nəfər**
**Abituriyentlərin ümumi sayı 105 120 nəfər**




## 2007/2008-cu tədris ilinin tələbə qəbulu üzrə

**Məzunların ümumi sayı 113 922 nəfər**
**Abituriyentlərin ümumi sayı 106 831 nəfər**

[redacted]

**2008/2009-cu tədris ilinin tələbə qəbulu üzrə**

**Məzunların ümumi sayı 106 246 nəfər**
**Abituriyentlərin ümumi sayı 116 520 nəfər**




**2009/2010-cu tədris ilinin tələbə qəbulu üzrə**

**Məzunların ümumi sayı 108 271 nəfər**
**Abituriyentlərin ümumi sayı 112 875 nəfər**



əsasında formalaşdırılan cəmmiyyətin həyati məsələlərinin həlli şübhəsiz zaman tələb edirdi. Bu proses təhsil sahəsində də öz spesifikasına malikdi. Köhnə iqtisadiyyatın iflası köhnə, texniki və texnoloji cəhətdən geri qalmış istehsalla yanaşı onun üçün kadr hazırlayan təhsil şəbəkəsinin dağılmasına səbəb oldu. Yeni şərait, yeni ictimai-iqtisadi mühit bütövlükdə təhsilin yenidən qurulmasını və yeni tələblərə uyğunlaşdırılmasını tələb edir.

İctimai-iqtisadi problemlərdən danışarkən qeyd etmək vacibdir ki, əmək bazarının xarakterinin dəyişməsi, tələb olunan kadr potensialının mövcud vəziyyətə uyğun olmaması çətinliklərin səbəbləri sırasına daxildir. 10-15 il əvvəl peşə məktəbləri, hətta ali və orta ixtisas məktəblərinin hazırladığı ixtisas forma və məzmun, habelə hazırlanan mütəxəssislərin keyfiyyəti müasir dövrün tələblərinə cavab vermir. Boyük vəsaitlər hesabına hazırlanmış kadrların heç bir işə yaramadığı məlum olur. Düzdür, təhsil müəssisələri bu tələbata müvafiq olaraq dəyişirlər. Lakin bu dəyişmə tempi, keyfiyyətin lazımi səviyyəyə yüksəldilməsi, təhsil müəssisələrinin bütün işlərinin yeni şəraitə uyğun qurulması prosesi müasir tələblərə uyğun deyildir. Xüsusən qeyd etmək lazımdır ki, Keçid dövründə köhnə istehsala əsaslanan peşə təhsili sistemi dağılmış, yenisi isə hələ yaranmamışdır. Deməli söhbət köhnələrin bərpasından deyil, forma və məzmununa görə fərqlənən, yeni ictimai-iqtisadi

münasibətlər təməlində fəaliyyət göstərən yeni peşə yönümlü məktəblərin yaranmasından gedir.

Layihənin qarşısına qoyduğu məqsədlərdən ən vaciblərindən biri orta məktəbi bitirdikdən sonra təhsilini müxtəlif səbəblər üzündən davam etdirə bilməyən məzunların öz yerini tutması, işə düzəlməsi, peşə qazanması, özlərini maddi cəhətdən təmin edə bilməsi, daimi işlə təmin edilməsi məsələsidir. Həmin gənclərin xeyli hissəsinin çətinliklər və problemlər şəraitində neqativ təsirlərə məruz qalması, pis vərdişlərə meyl etməsi, cinayətkarlığa, tufeyli həyata can atması və digər təhlükəli hallar normal cəmiyyəti narahat etməyə bilməz. Gənclərin yetkin həyata qədəm qoyduqları anda üzləşdikləri çətinliklər belə xoşagəlməz hallar üçün zəmin yaradır.

Aparılan sosioloji tədqiqatların nəticələri belə bir həyəcanlı vəziyyətin olmasını əyani şəkildə göstərir. 2000-dən artıq orta məktəb məzunu arasında aparılan sorğudan bir daha məlum olur ki, orta təhsili başa vurmuş məzunların şəhərlərdə, xüsusən Bakıda, Sumqayıtda və bir sıra digər iri şəhərlərdə ayrı-ayrı məktəblər üzrə ən yaxşı halda 40 faizə qədəri təhsillərini davam etdirmək imkanı qazanmışlar. Bütövlükdə isə şəhərlərin özündə də ümumilikdə bu göstərici 30 faizi ötmür. Şəhərlərdən uzaq olan məktəblərdə isə bu faiz çox aşağıdır.

Əmək fəaliyyətinə başlayan məzunların əksəriyyəti ən yaxşı halda xidmət sahəsində özlərinə iş tapa bilirlər. Onların əmək vərdişləri çox aşağı səviyyədə olduğundan onlar əksər hallarda cüzi əmək haqqı alan ucuz işçi qüvvəsi sıralarını doldurmuşlar. Onlar heç bir inkişaf perspektivi olmayan ağır əməklə məşğul olurlar. Ən geniş yayılmış iş yerlərindən qeyd etmək olar: istehsal müəssisələrində ixtisassız fəhlə, restoran və şadlıq evlərində xidmət personalı, tikintidə fəhlə və s. Sorğunun nəticələrinə görə rəyi soruşulanların əksəriyyəti ixtisas qazanmağa böyük maraqları olduğunu ifadə etmişlər. Onların 90 faizdən çoxu ali və orta ixtisas məktəblərində təhsillərini davam etdirmək arzusunda olduqlarını qeyd etmişlər. Lakin bu marağı heç də onların elmə və təhsilə olan güclü marağı ilə izah etmək çətindir. Respondentlərin xeyli hissəsi bu marağın ikinci dərəcəli səbəbdən irəli gəldiyini bildirmişlər. Təsadüfi deyildir ki, TQDK-nın statistik məlumatlarına əsasən ali məktəblərə sənəd vermiş abituriyantlərin 50 faizindən çoxu minimum müsabiqə balını toplaya bilməmişdir. Bəzi hallarda isə orta məktəb məzunu yalnız tələbə qəbulu kampaniyasında seçim imkanlığının məhdudluğu üzündən iştirak edir. Abituriyentlərin təhsil və peşə seçimində öz gələcək fəaliyyət istiqaməti barəsində məlumatlarının kifayət qədər olmadığını nümayiş etdirirlər. Onlardan 45-50 faizi

seçdikləri ixtisas üzrə işləyəcəklərinə ümid etmədiklərini bildirmişlər.

Oğlan və qız məzunların həm vəziyyətlərində, həm də münasibətlərində ciddi fərqlər vardır. Əgər məzun oğlanlar istənilən situasiyada özünə iş tapmağa israrlıdırlarsa, qızlarda bu o qədər də hiss olunmur.

Sorğu tədqiqatı davamlı təhsildən kənarda qalan gənclərin ağır əmək sahələrində ucuz işçi qüvvəsi kimi istismara məruz qalması reallığını göstərməklə yanaşı, onların xeyli hissəsinin cəmiyyət üçün təhlükəli olan zərərli təsir altına düşməsi barədə həyəcan təbili vurmağa əsas verir. Statistik materiallar da bu sahədə vəziyyətin ciddi olduğundan və cəmiyyətin diqqətinin onlara yönəlməsinə olan kəskin ehtiyacdan xəbər verir. Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının statistik materiallarının araşdırılması haqqında danışılan problemin bütün cəhətlərini və incəliklərini daha əyani şəkildə təsəvvür etməyə və onun cəmiyyət üçün yaratdığı təhlükənin miqyasını görməyə imkan verir. 2010-2011-ci tədris ilində ölkəmizin 4546 ümumtəhsil məktəbində 1 359 900 şagird təhsil alacaq.

2010-2011-ci tədris ilində ümumtəhsil məktəblərinin ölkə əhalisinin ümumi sayına olan nisbətinə diqqət yetirək (Azərbaycan Respublikası statistika idarəsinin məlumatına əsasən)

**Əhalinin təhsil səviyyəsi**

***(15 və yuxarı yaşda olan əhalinin hər 1000 nəfərinə; ilin əvvəlinə)***

***Cədvəl 4***

| **Təhsil səviyyəsi** | **2009** |
|---|---|
| Ali və orta (tam və ümumi) təhsili olan 15 və yuxarı yaşda əhali | 914 |
| o cümlədən: | |
| ali | 117 |
| orta ixtisas | 118 |
| tam orta | 531 |
| ümumi orta | 148 |

Əhalinin İqtisadi Fəallığına dair statistik müayinələrin məlumatlarına əsasən 2009-cu ildə əhalinin savadlılıq səviyyəsi 99,6 faiz təşkil etmişdir;

Yuxarıdakı məlumatlardan göründüyü kimi Azərbaycanda yaşlı əhalinin hər 1000 nəfərinə düşən ali və orta ixtisaslıların sayı o qədər də böyük deyildir. Ali və orta ixtisas təhsillilər hər biri onların 12 faizini (birlikdə 24 faizini) təşkil edirlər. Baxmayaraq ki əhalinin əksəriyyətinin minimum təhsil səviyyəsi kifayət qədər

yüksəkdir, lakin onların əmək karyerası üçün lazım olan baza kifayət deyildir. Onların 75 faizinin səviyyəsi müasir cəmiyyət

**15 və yuxarı yaşda olan əhalinin hər 1000 nəfərinə;**

**2009-cu ilin əvvəlinə**




**Azərbaycan əhalisinin yaş qrupları üzrə sayı (ilin əvvəlinə, min nəfər)**

***Cədvəl 5***

| Əhali | 2010 | % |
|---|---|---|
| Cəmi | 8 997.4 nəfər | 100,00 |
| 0-14 yaşda | 1 987,9 nəfər | 22,09 |
| 15-34 yaşda | 3 301,4 nəfər | 36,70 |
| 35 yaşdan yuxarı | 3 708.1 nəfər | 41,21 |

üçün minimum hesab edilən həddədir. Nəzərə alsaq ki, 2010-cu ilin statistik göstəricilərinə görə 15 yaşdan 34 yaşa qədər gənclər

ümumi əhalinin 36,70 faizini təşkil edir, məsələnin ciddiliyi tam kəskinliyi ilə görünür.

**İqtisadi fəaliyyət növləri üzrə muzdla işləyən işçilərin sayı (min nəfər)**

***Cədvəl 6***

| | **2009** |
|---|---|
| **İqtisadiyyat üzrə – cəmi** | **1 376.1** |
| Kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı | 43.9 |
| Balıqçılıq, balıqyetişdirmə | 0.6 |
| Mədənçıxarma sənayesi | 35.2 |
| Emal sənayesi | 95.3 |
| Elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi | 39.5 |
| Tikinti | 67.1 |
| Topdan və pərakəndə ticarət; avtomobillərin, məişət məmulatlarının və şəxsi istifadə əşyalarının təmiri | 268.3 |
| Mehmanxana və restoranlarla xidmətin göstərilməsi | 15.3 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 101.5 |
| Maliyyə fəaliyyəti | 19.7 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və istehlakçılara xidmət göstərilməsi | 65.1 |
| Dövlət idarəetməsi və müdafiə, sosial təminatın vəzifələri | 53.5 |
| Təhsil | 345.8 |
| Səhiyyə və sosial xidmətlərin göstərilməsi | 138.8 |
| Digər kommunal, sosial və səxsi xidmətlərin göstərilməsi | 86.5 |

# Peşə təhsili sisteminin vəziyyəti və onun perspektivləri

Böyüməkdə olan və yetkinlik yaşına qədəm qoyan nəslin əmək karyerasının təmin edilməsində müasir dövrdə və müasir ictimai-iqtisadi münasibətlər şəraitində peşə təhsili sistemi müstəsna əhəmiyyətə malikdir. Az-çox inkişaf etmiş, müəyyən sənaye potensialına malik olan ölkələrin əksəriyyətində peşə təhsili sistemi özünəməxsus yer tutur.

İnkişaf etmiş qabaqcıl dünya ölkələrində orta məktəb məzunlarının 40-60 faizi texniki peşə məktəblərində təhsillərini davam etdirərək, ixtisas qazanır və öz əmək karyeralarının əsasını qoyurlar. Nəzərə alsaq ki, həmin ölkələrdə ali və orta ixtisas məktəbləri məzunların 50 faizdən çoxunu əhatə edir, əhalinin bu kateqoriyasının – məktəb məzunlarının tam əhatə olunduğunun və diqqətdən kənarda qalmadıqlarının şahidi oluruq. Onu Azərbaycanla müqayisə etsək, real vəziyyəti təsəvvür etmək mümkün olur. Beləliklə, rəsmi statistikaya görə məktəb məzunlarının 15-20 faizi ali və orta ixtisas məktəblərinə, 5-8 faizi isə peşə məktəblərinə qəbul edilir. Göründüyü kimi təhsildən və məqsədyönlü peşə orientasiyasından kənarda qalanların sayı kifayət qədər yüksəkdir. Bu onların ümumi sayının təxminən 70 faizini təşkil edir ki, bu da narahatlıq doğurmaya bilməz.

Müqayisə üçün qeyd edək ki, XX əsrin 80-ci illərində Sovet Azərbaycanında 185 texniki-peşə məktəbi fəaliyyət göstərirdi və onlar da hər il 109 min gənc həmin dövrün tələblərinə uyğun ixtisas qazanırdı. Düzdür, sovetlər dövründə bu təhsil sistemi şəbəkəsinin özünün və onun aid olduğu mühitin kifayət qədər problemləri var idi. Lakin bütün çatışmayan cəhətlərinə baxmayaraq peşə təhsili məktəbləri cəmiyyətin xeyli problemlərinin həllində mühüm rol oynamışlar. Lakin sovetlər ittifaqı dağıldığı zaman bu peşə təhsili şəbəkəsi də dağılmış, köhnə texnologiyaya əsaslanan təsərrüfatın bir əlavəsi kimi sıradan çıxmışdır. Az-çox saxlanmış texniki-peşə məktəbləri isə müasir istehsalın tələblərinə cavab verə bilmədiklərindən iflic vəziyyətinə düşmüşdülər.

Hazırda isə belə məktəblərin sayı 107, orada təhsil alan şagirdlərin sayı isə ildə təxminən 12 min nəfərdir. Lakin peşə təhsili məktəblərinin problemləri təkcə onların sayının azlığında və əhatə etdikləri şagird kontingentinin məhdudluğunda deyildir. Peşə təhsili sisteminin problemləri sırasına tədris olunan ixtisasların müasir istehsala uyğunsuzluğu, tədrisin keyfiyyət səviyyəsi, peşə məktəblərinin maddi-texniki imkanlarının həddən artıq məhdudluğu, bu sahəyə ayrılan dövlət vəsaitinin azlığı və sair kimi məsələlər daxildir. Peşə təhsili sistemində mövcud olan bu problemlər, onların aradan qaldırmağın mümkün yolları, bu

sahədə dövlətin və cəmiyyətin qarşısında duran vəzifələr dövlətin qəbul etdiyi "2007-2012-ci illər üçün Azərbaycan Respublikasında texniki-peşə təhsilinin inkişaf konsepsiyasında" öz əksini tapmışdır. (**Azərbaycan Respublikasında texniki - peşə təhsilinin inkişaf konsepsiyası (2007- 2012-ci illər))**

Göründüyü kimi yeni ictimai-iqtisadi şəraitdə ictimai həyatın bütün sahələrində qlobal problemləri həll edən Azərbaycan Respublikası eyni zamanda əhalini, xüsusən böyüməkdə olan nəslin ixtisas qazanması problemlərini həll etməli olduğu bir məqamda bunun yollarından biri də müasir iqtisadi inkişafın tələblərinə cavab verən peşə təhsili şəbəkəsini yenidən qurmaqdır. Təsadüfi deyildir ki, 2007-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasında texniki-peşə təhsilinin inkişaf konsepsiyasında vəziyyət təhlil edilərək qarşıda duran vəzifələr müəyyənləşdirilmişdir. Bu sənəddə qeyd olunur ki, Konsepsiyanın hazırlanmasında fasiləsiz təhsil, davamlı insan inkişafı, təhsilin humanistliyi və demokratikliyi, şəxsiyyətyönümlü, texniki - peşə təhsili sahəsində dövlət siyasəti, ölkə iqtisadiyyatının və əmək bazarının tələbatına uyğun ixtisaslı kadrlara olan ehtiyacın ödənilməsi və gənclərin bərabər təhsilalma imkanları prinsipləri əsas götürülmüşdür.

Peşə təsilinin müasir dövrdə xüsusi standartlar əsasında, müasir istehsalın və əmək bazarının tələblərinə uyğun qurulmasına ehtiyac vurğulanır. "Qloballaşmanın geniş vüsət aldığı müasir cəmiyyətin formalaşdırdığı intelektə və biliklərə söykənən iqtisadiyyatın yarandığı müasir dövrdə hər bir ölkənin siyasi, iqtisadi və sosial inkişafı onun malik ola bilcəyi yüksək elmi tutumlu texnologiyalara nə dərəcədə sürətlə yiyələnə biləcəyindən, başqa sözlə, səmərəli təhsil sistemindən asılıdır."

Azərbaycanda peşə təhsilininin yeni mühit və şəraitə uyğun şəkildə yenidən qurulmasından danışarkən demək vacibdir ki, bu təhsil şəbəkəsinin yaradılmasında faktik olaraq ilkin addımlar atılır. Hazırda fəaliyyət göstərən 107 peşə təhsili müəssisəsinin 47-si peşə liseyi və 60-ı isə peşə məktəbidir. Texniki - peşə təhsilinin kifayət qədər problemləri vardır, Onların aradan qaldırılması təkcə təhsil sahəsini deyil, bütün Azərbaycan cəmiyyətinin ictimai həyatının çox sahələrinin vacib məsələlərindəndir. Konsepsiyada və digər proqram sənədlərində peşə təhsilinin malik olduğu problemləri aşağıdakı kimi sistemləşdirilmiş və ona uyğun vəzifələr müəyyən edilmişdir:

- Peşə-texniki məktəblərin maddi–texniki bazası günün tələblərinə cavab vermir. Hazırda istifadə edilən bütün avadanlıq fiziki və mənəvi cəhətdən köhnəlmişdir.

- Respublikanın peşə məktəbi və peşə liseylərində çalışan ixtisas fənn müəllimləri arasında mühəndis – pedaqoqların sayı kifayət qədər deyil.
- Son bir neçə ildə respublikanın texniki - peşə təhsili müəssisələrində təhsil alan şagirdlərin sayı xeyli azalmışdır.
- İnkişaf etmiş ölkələrdə əsas təhsil pilləsi məzunlarının 40-60 %-i məhz texniki-peşə məktəblərinə qəbul olunduğu halda, bu rəqəm Azərbaycanda 5-8 % təşkil edir.
- Texniki-peşə təhsilinin Dövlət standartlarının olmaması yeni tədris plan və proqramlarının, dərslik və dərs vəsaitlərinin hazırlanmasında çətinliklər yaradır.
- Dövlət büdcəsindən ayrılan vəsait tələb olunan xərcləri tam ödəmir.”

Dövlət proqramlarının qəbul edilməsi və həyata keçirilməsi məqamında peşə təhsili sisteminin mövcud vəziyyətinə diqqət yetirsək xeyli dəyişiklikləri müşahidə etmək olar. Lakin qeyd etməliyik ki, hazırkı templər dövrün tələblərinə cavab vermək iqtidarında deyildir. Bunun səbəblərindən biri də vəziyyətin səbəblərinin həmin sahənin bilavasitə özü ilə bağlı olmamasıdır. Belə ki, təkcə texniki peşə məktəblərinin sayını artırmaq, oradakı təhsilin keyfiyyətini yüksəltmək problemi həll etmir. Peşə təhsili sistemi mövcud iqtisadi inkişafın səviyyəsinə

əsaslanır, bu sahədə olan çatışmamazlıqlar peşə təhsilinin forma, məzmun və kəmiyyətinə təsir göstərir.

Təhsil Nazirliyinin tabeliyində 107 peşə təhsili müəssisəsi, o cümlədən 47 peşə liseyi, 1 peşə tədris mərkəzi və 60 peşə məktəbi fəaliyyət göstərir ki, onlardan 8-i cəzaçəkmə müəssisələrinin nəzdindədir.

Bundan əlavə, Şuşa 72 nömrəli, Qubadlı 126 nömrəli, Zəngilan 144 nömrəli peşə məktəbi, Ağdam 70 və 136 nömrəli peşə məktəbləri və Ağdam 24 nömrəli xüsusi peşə məktəbinin fəaliyyəti isə məlum səbəblər üzündən dayandırılmışdır.

Fəaliyyət göstərən peşə müəssisələrinin 45-i komplekslərdə, 39-u uyğunlaşdırılmış binalarda, qalanları isə yararsız binalarda yerləşmişdir.

2008-ci ilin yanvar ayının 1-nə olan məlumata əsasən peşə təhsili müəssisələrində işləyən işçilərin ümumi sayı 6473 nəfər olmuşdur. Onlardan 4476 nəfərini mühəndis-pedaqoji işçilər təşkil etmişdir.

Bir çox peşə təhsili müəssisələrinin tədris binası, emalatxana və yataqxanalarında məcburi köçkün və qaçqın ailələrinin yerləşməsi təlim-tədris prosesinin keyfiyyətlə həyata keçirilməsinə mane olur. Hesabat ilində respublikanın 55 peşə təhsili müəssisəsində ümumilikdə 3258 ailə, 14411 nəfər qaçqın və məcburi köçkün ailəsi yerləşmişdir.

Texniki peşə təhsili sisteminə ayrılan dövlət vəsaitlərinin inkişaf dinamikasının təhlili göstərir ki, əgər 2005-ci ildə 7 mln, 2006-cı ildə 10 mln, 2007-ci ildə 16 mln manat vəsait ayrılmışdırsa, 2008-ci ildə bu rəqəm 20,5 mln manata yüksəlmişdir. Bununla yanaşı bir təhsilalana çəkilən xərc də artmışdır. Belə ki, əgər 2005-ci bir təhsilalana ildə 328 manat, 2006-cı ildə 457 manat, 2007-ci ildə 740 manat xərclənirdisə, 2008-ci ildə bu rəqəm 903 manata qədər artmışdır. Doğrudur, texniki-peşə təhsili sahəsinin inkişafı daha çox maliyyə resursları tələb edir və qısa müddət ərzində uğurlu nəticələr əldə etməyə imkan vermir, buna baxmayaraq respublikanın sosial-iqtisadi həyatında baş verən irəliləyişlər, bütövlükdə təhsil sisteminin də inkişafını sürətləndirir.

Nazirlər Kabinetinin 14 oktyabr 2008-ci il Təhsil Nazirliyinin 1221 nömrəli 07.11.2008-ci il tarixli əmri ilə Qəbələ Turizm və Otelçilik üzrə Peşə Tədris Mərkəzi yaradılmışdır. Qeyd olunmalıdır ki, bu son 10 ildə respublikada inşa edilən və müasir avadanlıqlarla təchiz edilmiş ilk peşə təhsil müəssisəsidir.

Layihənin ümumi dəyəri 489.290 ABŞ dollardır. Yaponiya hökuməti layihənin həyata keçirilməsi ilə əlaqədar 203.400 ABŞ dolları məbləğində vəsaiti YUNESKO-nun Moskvadakı nümayəndəliyinin hesabına köçürmüşdür. Təhsil Nazirliyi 2008-ci ildə həyata keçirilməsi planlaşdırılan tədbirlərin

maliyyələşdirilməsini təmin etmək məqsədilə 28.000 manat məbləğində vəsait YUNESKO-nun Moskvadakı nümayəndəliyinin hesabına köçürülmüşdür.

Hesabat ilində həmçinin, Böyük Britaniyanın Britiş Konsul təşkilatı ilə Avropa Komissiyasının "Peşə Təhsili və Təlimi İslahatı Strategiyası və Azərbaycanın seçilmiş regionunda sınaq tətbiqi" layihəsinin həyata keçirilməsinə də başlanılmışır.

2008-ci ildə mühəndis-pedaqoji heyətin təkmilləşdirilməsi istiqamətində bir sıra addımlar atılmışdır. Belə ki, Türkiyə Təhsil Nazirliyinin təşkilatçılığı ilə noyabr ayında "Azərbaycanlı İnformatika və Elektron-Mühəndisləri Müəllimləri üçün Avtomatik Kurs" təşkil edilmişdir. Bu məqsədlə Təhsil Nazirliyinin, 7, 3, 13, 12, 17 nömrəli Bakı peşə liseylərinin, 14 nömrəli Bakı peşə məktəbinin və 3 nömrəli Gəncə peşə liseyinin mütəxəssislərindən ibarət 10 nəfərlik nümayəndə heyəti 1 ay müddətində Türkiyənin İzmir şəhərində fəaliyyət göstərən peşə təhsili müəssisələrində treninq keçmişlər.

Koreyanın DEU şirkəti ilə birlikdə 4 nömrəli Bakı peşə liseyinin bazasında "Qabaqcıl Texnologiyalar üzrə Peşə Tədris Mərkəzi"nin yaradılması ilə əlaqədar müvafiq iqtisadi və maliyyə dəyərləndirilməsi sənədləri hazırlanmışdır və Nazirlər Kabinetinə təqdim edilmişdir

2008-ci ildə Respublika üzrə peşə təhsili müəssisələrini bitirən 12787 nəfər şagirddən yalnız 11231 nəfər şagird və ya 87,83%-i təhsillərini müvəffəqiyyətlə başa vuraraq 8546 ədəd diplom (onlardan 8-i fərqlənmə diplomudur), 3451 ədəd içlik, 2685 ədəd peşə attestatı (onlardan 5-i fərqlənmə attestatıdır) almışlar.

Peşə təhsilinin inkişafının göstəricilərindən biri də büdcədən həmin sahəyə ayırmaların müqdarıdır. Texniki peşə təhsilinə ayrılan vəsait və onun ümumilikdə təhsilə ayrılan vəsaitin (maliyyə) neçə faizini təşkil etdiyi barədə məlumat (min manatla) vəziyyəti əyani təsəvvür etməyə imkan verir.

**Texniki peşə təhsilinə ayrılan vəsait və onun ümumilikdə təhsilə ayrılan vəsait payı**

*Cədvəl 7*

| № | Maliyyə ili | Peşə təhsilinə ayrılan (min manatla) vəsait | Təhsilə ayrılan vəsaitin peşə təhsilinə yönəldilən hissəsi (faizlə) |
|---|---|---|---|
| 1 | 2005 | 7249,3 | 2,9% |
| 2 | 2006 | 9595,7 | 1,9% |
| 3 | 2007 | 15774,0 | 2,1% |
| 4 | 2008 | 22029,7 | 2,3% |
| 5 | 2009 | 26091,9 | 1,9% |

**Texniki-peşə təhsili sahəsi üzrə 2008-ci ildə görülmüş işlərə dair hesabat*

Qeyd olunduğu kimi ölkənin əmək ehtiyatlarının səmərəli paylanması mühüm əhəmiyyətə malikdir. Bu məsələnin nizama qoyulması eyni zamanda işləyən əhalinin düzgün istiqamətlənməsi ilə sıx bağlıdır.

Kitabda verilmiş cədvəllərdən göründüyü kimi Ölkənin işləyən əhalisinin bölünməsi təsərrüfatın ağır və az ixtisaslı və ya ixtisassız əmək tələb edən sahələrində üstünlük təşkil edir. Qloballaşma şəraitində formalaşan ümumi iqtisadi məkanda mövcud vəziyyətlə qane olmaq mümkün deyildir. İctimai həyatın beynəlxalq xarakter alması, bir tərəfdən xalqların və mədəniyyətlərin yaxınlaşmasına gətirib çıxarırsa, digər tərəfdən ümumi məkanda maraqların üz-üzə gəlməsinnə, rəqabətin kəskinləşməsinə səbəb olur. Bu ictimai həyatın mühüm sahələrindən biri olan təhsil sahəsində də özünü göstərir.

Ölkənin işləyən əhalisinin fəaliyyət sahəsi üzrə paylnması ictimai-iqtisadi həyatda yaranmış şəraiti özündə əks etdirir. Xüsusən orta məktəb istehsala və təsərrüfat sahəsinə üz tutan məzunları həmin istiqamətlərin ən aşağı ixtisaslı sahələrində çalışmalı olurlar. İşləyənlərin böyük bir hissəsi 65,1 faizi ən çox ixtisassız əməyi özündə birləşdirən kənd təsərrüfatında (38,4%), xidmət sahəsində (16,3%), tikintidə (5,5%) çalışanlardır. Uyğun olaraq əmək fəaliyyətinə başlayan gənclərin də əksəriyyəti məhz həmin sahələrdə işləməli olurlar.

# Azərbaycanda təhsil sisteminin hazırkı vəziyyəti və onun inkişaf imkanları

Aprılan tədqiqat işləri, əldə olunmuş müxtəlif xarakterli materiallar və mənbələrin, dövlət sənədlərinin analizi ölkədə əhalinin təhsil və peşə hazırlığı, yaxınlaşmaqda olan qloballaşma şəraitində onun ümumi iqtisadi məkanda və ümumi əmək bazarında rəqabət qabiliyyətliliyini, o cümlədən gənc nəslin bu sahədə mövcud problemlərinin real mənzərəsini təsəvvür etməyə, məsələnin ciddiliyini dərk etməyə imkan verir. O da həqiqətdir ki, vəziyyətdən çıxış yolları da asan və qısamüddətli deyildir. Vəziyyətlə tanış olan hər bir şəxsə aydın olur ki, bu sahədə nə qədər nəhəng problemləri həll etmək, maneələri aradan qaldırmaq, keyfiyyətcə yeni səviyyəyə nail olmaq kimi vəzifələr Azərbaycan dövləti və cəmiyyəti qarşısında durur. Əhalində bu məsələ böyük strateji əhəmiyyət kəsb edir və ölkənin dünyada tutduğu yerdə, əhalinin gələcək firavanlığı və təhlükəsizliyinin təmin edilməsində, ölkənin milli maraqlarının təmin edilməsində müstəsna rol oynayır. Azərbaycan dövlətinin bu gün ictimai həyatın bütün sahələrində, o cümlədən təhsil sahəsində həyata keçirdiyi uzunmüddətli inkişaf proqramları, islahatlar və digər quruculuq işləri həmin məqsədə yönəlmişdir. Lakin qeyd olunduğu kimi haqqında danışılan sahədə də vəzifələr nəhəngdir

və bütün ölkənin, o cümlədən vətəndaş cəmiyyətinin gücünün səfərbər edilməsi tələb olunur.

Çıxarılan nəticələrdən biri odur ki, böyüməkdə olan yeniyetmə nəslin, o cümlədən orta məktəb məzunlarının davamlı təhsil və peşə yönümü məsələlərinin həlli istiqamətində görülən işlərin tempi xeyli aşağıdır və müasir dövrün tələblərinə və ümumi inkişaf tempinə uyğun deyildir.

Məsələnin statistik tərəfindən çox onun keyfiyyəti narahatlıq doğurur. Bütövlükdə ölkədə texniki və texnoloji gerilik, təhsil sistemində olan problemlər, tədris materiallarının zamanın tələblərində geri qalması ciddi maneədir və tezliklə aradan qaldırılmalıdır.

Qloballaşmanın tempi bu prosesi həyatın müxtəlif sahələrində qarşılama tədbirlərinin tempini əhəmiyyətli dərəcədə üstələyir. Bu gecikmə əhalinin yeni mühitə hazırlanması məsələsində təşəbbüskarlığın itirilməsi təhlükəsini real edir.

Böyüməkdə olan nəslin neqatyiv meyllərin təsiri altına düşməsi, cəmiyyət üçün arzuolunmaz bəlalara yuvarlanmasının qarşısının alınması ehtiyacı təkidlə bu sahədə təcili işlərin görülməsini, radikal islahatların keçirilməsini tələb edir.

# CƏDVƏLLƏR VƏ DİAQRAMLAR

## Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin məlumatına görə 2009-cu ildə Azərbaycanda İqtisadi fəal əhalinin sayı və faizi

***Cədvəl 8***

| | **Cəmi** | **%** |
|---|---|---|
| **İqtisadi fəal əhali,cəmi, min nəfər*** | **4 331.8** | |
| İqtisadi fəal əhalinin ümumi sayından məşğul olanlar, cəmi ,( min nəfər) | 4 071.6 | 94.0 |
| İşsizlər - cəmi, min nəfər | 260.2 | 6.0 |
| məşğulluq xidməti orqanlarında işsiz statusu alan şəxslər, cəmi, nəfər | 41 100 | |
| kişilər | 23 008 | |
| qadınlar | 18 092 | |
| işsizliyə görə müavinət alanlar | 2 721 | |
| kişilər | 1 871 | |
| qadınlar | 850 | |

## 2009-cu ildə ölkədə məşğul əhalinin iqtisadi fəaliyyət növləri üzrə bölgüsü (min nəfər)

*Cədvəl 9*

| Fəaliyyət sahəsi | Cəmi | %-lə |
|---|---|---|
| **İqtisadiyyat üzrə – cəmi** | **4071.6** | **100.0** |
| Kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı | 1562.4 | 38.4 |
| Balıqçılıq, balıqyetişdirmə | 4.1 | 0.1 |
| Mədənçıxarma sənayesi | 41.2 | 1.0 |
| Emal sənayesi | 198.6 | 4.9 |
| Elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi | 40.5 | 1.0 |
| Tikinti | 224.3 | 5.5 |
| Topdan və pərakəndə ticarət; avtomobillərin, məişət və şəxsi istifadə əşyalarının təmiri | 661.5 | 16.3 |
| Mehmanxana və restoranlarla xidmətin göstərilməsi | 24.2 | 0.6 |
| Nəqliyyat, anbar təsərrüfatı və rabitə | 210.2 | 5.2 |
| Maliyyə fəaliyyəti | 19.8 | 0.5 |
| Daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və istehlakçılara xidmət göstərilməsi | 139.7 | 3.4 |
| Dövlət idarəetməsi və müdafiə, sosial təminatın vəzifələri | 277.2 | 6.8 |
| Təhsil | 346.9 | 8.5 |
| Səhiyyə və sosial xidmətlərin göstərilməsi | 184.5 | 4.5 |
| Digər kommunal, sosial və şəxsi xidmətlərin göstərilməsi | 135.9 | 3.3 |
| Toxunulmazlıq hüququ olan təşkilatların fəaliyyəti | 0.6 | 0.0 |

**Qeyd:** *2009-cu ildə məşğul olanların sayından 2 087,2 min nəfəri kişilər, 1 984,4 min nəfəri isə qadınlar təşkil etmişdir.*

## Orta ixtisas təhsili müəssisələrində təhsil alan tələbələrin sayı




## Orta ixtisas təhsili müəssisələrinə qəbul olan tələbələrin sayı



**Əyani ümumi təhsil müəssisələrində təhsil alan şagirdlərin sayı**



## Ümumtəhsil məktəblərini bitirən şagirdlərin sayı (nəfər)

*Cədvəl 10*

| | 2000 | 2005 | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|---|---|
| **Orta məktəbi bitirənlərin sayı - cəmi** | **68 788** | **152 690** | **158 453** | **154 656** | **150 655** | **150 370** |
| o cümlədən təhsil alma formaları üzrə: | | | | | | |
| əyani | 67 514 | 152 514 | 158 174 | 154 473 | 150 444 | 150 203 |
| onlardan: | | | | | | |
| dövlət | 67 514 | 151 938 | 157 463 | 153 677 | 149 596 | 149 290 |
| qeyri-dövlət | - | 576 | 711 | 796 | 848 | 913 |
| qiyabi (axşam) | 1 274 | 176 | 279 | 183 | 211 | 167 |
| **Tam orta məktəbi bitirənlərin sayı - cəmi** | **105 033** | **124 152** | **117 356** | **117 893** | **118 446** | **108 613** |
| o cümlədən təhsil alma formaları üzrə: | | | | | | |
| əyani | 94 176 | 123 480 | 116 925 | 117 369 | 118 135 | 108 376 |
| onlardan: | | | | | | |
| dövlət | 94 176 | 123 016 | 116 389 | 116 812 | 117 535 | 107 748 |
| qeyri-dövlət | - | 464 | 536 | 557 | 600 | 628 |
| qiyabi (axşam) | 10 857 | 672 | 431 | 524 | 311 | 237 |

## Orta ixtisas təhsil müəssisələri (tədris ilinin əvvəlinə)

*Cədvəl 11*

| | 2000/2001 | 2005/2006 | 2006/2007 | 2007/2008 | 2008/2009 | 2009/2010 |
|---|---|---|---|---|---|---|
| **Orta ixtisas təhsil müəssisələrinin sayı - cəmi** | **71** | **60** | **60** | **60** | **60** | **62** |
| o cümlədən: | | | | | | |
| dövlət | 68 | 56 | 56 | 56 | 56 | 58 |
| qeyri-dövlət | 3 | 4 | 4 | 4 | 4 | 4 |
| **Tələbələrin sayı - cəmi, nəfər** | **42 612** | **57 896** | **56 872** | **53 489** | **52 579** | **52 765** |
| o cümlədən: | | | | | | |
| dövlət | 41 173 | 55 028 | 53 745 | 51 482 | 51 596 | 51 079 |
| onlardan təhsil alma formaları üzrə: | | | | | | |
| əyani | 33 084 | 43 303 | 41 348 | 39 300 | 39 268 | 40 514 |
| qiyabi | 8 089 | 11 725 | 12 397 | 12 182 | 12 328 | 10 565 |
| qeyri-dövlət | 1 439 | 2 868 | 3 127 | 2 007 | 983 | 1 686 |
| onlardan təhsil alma formaları üzrə: | | | | | | |
| əyani | 1 248 | 2 249 | 2 373 | 1 425 | 624 | 1 020 |
| qiyabi | 191 | 619 | 754 | 582 | 359 | 666 |
| **Əhalinin hər 10000 nəfərinə hesabı ilə tələbələrin sayı** | **55** | **70** | **68** | **63** | **61** | **61** |
| o cümlədən dövlət | 53 | 67 | 64 | 61 | 60 | 59 |
| Tələbələrin ümumi sayından qadınlar: | | | | | | |
| nəfər | 29 759 | 40 415 | 40 197 | 37 629 | 36 276 | 35 597 |
| faizlə | 69.8 | 69.8 | 70.7 | 70.3 | 69.0 | 67.5 |
| **Orta ixtisas təhsil müəssisələrində professor-müəllim heyətinin sayı (əsas heyət), nəfər:** | | | | | | |
| dövlət | 5 316 | 6 706 | 6 897 | 6 883 | 6 929 | 7 013 |
| qeyri-dövlət | 145 | 107 | 152 | 111 | 74 | 152 |

**Orta ixtisas təhsil müəssisələrinə qəbul və orta ixtisas təhsilli mütəxəssislərin buraxılışı (nəfər)**

*Cədvəl 12*

| | 2000/2001 | 2005/2006 | 2006/2007 | 2007/2008 | 2008/2009 | 2009/2010 |
|---|---|---|---|---|---|---|
| **Orta ixtisas təhsil müəssisələrinə qəbul olunanların sayı – cəmi** | **14 823** | **17 330** | **15 157** | **13 679** | **15 681** | **15 907** |
| o cümlədən: | | | | | | |
| dövlət | 14 342 | 16 079 | 14 539 | 13 679 | 15 681 | 15 249 |
| onlardan təhsil alma formaları üzrə: | | | | | | |
| əyani | 11 926 | 13 557 | 12 203 | 11 878 | 13 274 | 12 914 |
| qiyabi | 2 416 | 2 522 | 2 336 | 1 801 | 2 407 | 2 335 |
| qeyri-dövlət | 481 | 1 251 | 618 | - | - | 658 |
| onlardan təhsil alma formaları üzrə: | | | | | | |
| əyani | 425 | 1 025 | 459 | - | - | 505 |
| qiyabi | 56 | 226 | 159 | - | - | 153 |
| **Buraxılan mütəxəssislərin sayı – cəmi** | **11 309** | **15 796** | **16 385** | **17 007** | **17 278** | **15 863** |
| o cümlədən: | | | | | | |
| dövlət | 10 846 | 15 302 | 15 672 | 15 993 | 16 286 | 14 573 |
| onlardan əyani təhsil alma formaları üzrə | 8 910 | 11 599 | 12 353 | 12 438 | 12 412 | 10 400 |
| qeyri-dövlət | 463 | 494 | 713 | 1 014 | 992 | 1 290 |
| onlardan əyani təhsil alma formaları üzrə | 463 | 407 | 595 | 800 | 768 | 967 |
| **Əhalinin hər 10000 nəfərinə texnikumlar tərəfindən buraxılan mütəxəssislərin sayı** | **15** | **19** | **20** | **20** | **20** | **18** |

## Ali təhsil müəssisələri (tədris ilinin əvvəlinə)

***Cədvəl 13***

| | 2000/2001 | 2005/2006 | 2006/2007 | 2007/2008 | 2008/2009 | 2009/2010 |
|---|---|---|---|---|---|---|
| Ali təhsil müəssisələrinin sayı - cəmi | 47 | 47 | 47 | 48 | 48 | 53 |
| o cümlədən: | | | | | | |
| dövlət | 29 | 32 | 33 | 34 | 34 | 37 |
| qeyri-dövlət | 18 | 15 | 14 | 14 | 14 | 16 |
| Tələbələrin sayı - cəmi, nəfər | 119 683 | 129 948 | 129 141 | 130 430 | 136 587 | 139 194 |
| o cümlədən: | | | | | | |
| dövlət | 91 019 | 105 997 | 106 882 | 108 238 | 115 994 | 117 934 |
| onlardan təhsil alma formaları üzrə: | | | | | | |
| əyani | 74 749 | 80 510 | 81 975 | 83 811 | 90 539 | 92 531 |
| qiyabi | 16 270 | 25 487 | 24 907 | 24 427 | 25 455 | 25 403 |
| qeyri-dövlət | 28 664 | 23 951 | 22 259 | 22 192 | 20 593 | 21 260 |
| onlardan təhsil alma formaları üzrə: | | | | | | |
| əyani | 21 477 | 16 477 | 16 579 | 16 949 | 16 842 | 17 642 |
| qiyabi | 7 187 | 7 474 | 5 680 | 5 243 | 3 751 | 3 618 |
| Əhalinin hər 10000 nəfərinə hesabı ilə tələbələrin sayı | 153 | 158 | 155 | 154 | 159 | 160 |
| o cümlədən dövlət | 117 | 129 | 128 | 128 | 135 | 136 |
| Tələbələrin ümumi sayından qadınlar: | | | | | | |
| nəfər | 49 858 | 62 022 | 61 265 | 61 172 | 62 394 | 63 940 |
| faizlə | 41.7 | 47.7 | 47.4 | 46.9 | 45.7 | 45.9 |
| Ali təhsil müəssisələrdə professor-müəllim heyətinin sayı (əsas heyət), nəfər: | | | | | | |
| dövlət | 10 786 | 12 455 | 12 367 | 11 855 | 12 855 | 12 813 |
| qeyri-dövlət | 1 698 | 1 987 | 1 991 | 1 883 | 1 968 | 2 120 |

## Əmək bazarının əsas sosial-iqtisadi göstəriciləri

*Cədvəl 14*

| | 2006 | 2007 | 2008 | 2009 |
|---|---|---|---|---|
| Əhalinin orta illik sayı – min nəfər | 8609,5 | 8722,9 | 8838,4 | 8947,2 |
| İqtisadi fəal əhalinin sayı - min nəfər | 4264,2 | 4295,2 | 4318,2 | 4331,8 |
| İqtisadiyyatda məşğul olanların sayı-min nəfər | 3973,0 | 4014,1 | 4056,0 | 4071,6 |
| **o cümlədən mülkiyyət formaları üzrə:** | | | | |
| dövlət | 1271,9 | 1234,6 | 1244,4 | 1149,7 |
| qeyri-dövlət | 2701,1 | 2779,5 | 2811,6 | 2921,9 |
| İşsizlər, min nəfər | 291,2 | 281,1 | 262,2 | 260,2 |
| Məşğulluq xidmətləri orqanlarında rəsmi işsiz statusu alan şəxslər, nəfər | 53862 | 50651 | 44481 | 41100 |
| Peşə məktəbləri və peşə liseylərinin sayı | 107 | 107 | 108 | 108 |
| Peşə məktəbləri və peşə liseylərində təhsil alanların sayı - nəfər | 23813 | 24455 | 25184 | 25562 |
| Peşə məktəbləri və peşə liseylərinə qəbul olunanlar - nəfər | 14590 | 14718 | 13761 | 13497 |
| Peşə təhsilini başa vurmuş ixtisaslı kadrların sayı - nəfər | 12862 | 13156 | 11927 | |
| Peşə məktəbləri və peşə liseyləri müəllimlərinin sayı (əsas heyət) – cəmi, nəfər | 1971 | 2051 | 2163 | 1996 |
| Müəssisə, idarə və təşkilatlarda peşə hazırlığı keçmiş kadrların sayı - nəfər | 6549 | 6840 | 4890 | 4393 |

## 2009/2010-cu tədris ilində orta ixtisas təhsil müəssisələri

*Cədvəl 16*

| | |
|---|---|
| **Orta ixtisas təhsil müəssisələrinin sayı** | **62** |
| o cümlədən dövlət | 58 |
| qeyri-dövlət | 4 |
| **Orta ixtisas təhsil müəssisələrinə qəbul olunanların sayı** | **15 907** |
| **Tələbələrin sayı - cəmi, nəfər** | **52 765** |
| **Əhalinin hər 10000 nəfərinə hesabı ilə tələbələrin sayı** | **61** |
| **Buraxılan mütəxəssislərin sayı** | **15 863** |
| **Əhalinin hər 10000 nəfərinə hesabı ilə orta ixtisas təhsil müəssisələr tərəfindən buraxılan mütəxəssislərin sayı** | **18** |

## 2009, 2010-cutədris ilində ali təhsil müəssisələri

*Cədvəl 17*

| | |
|---|---|
| **Ali təhsil müəssisələrinin sayı** | **53** |
| o cümlədən: dövlət | 37 |
| qeyri-dövlət | 16 |
| **Tələbələrin sayı - cəmi, nəfər** | **139 194** |
| **2009,2010-cu ildə Ali təhsil müəssisələrinə qəbul olan tələbələrin sayı** | **29 822** |
| **Əhalinin hər 10000 nəfərinə hesabı ilə tələbələrin sayı** | **160** |
| **2009,2010-cu ildə buraxılan mütəxəssislər** | **34 591** |
| **Əhalinin hər 10000 nəfərinə hesabı ilə ali təhsil müəssisələri tərəfindən buraxılan mütəxəssislərin sayı** | **40** |

**İbrahim Zülfiqar oğlu Əliyev**

**Qloballaşma dövründə Azərbaycanda orta məktəb məzunlarının təhsil və məşğulluq problemləri**

**Format 60x84, 1/16, 3 ç.v.**

**Kitab "Maarif" Nəşriyyatında çap olunmuşdur**